**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNNOVASİYALI İQTİSADİYYATIN FORMALAŞDIRILMASINDA EMAL SƏNAYESİNİN ROLU VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

İxtisas: 5304.01 – "İqtisadi fəaliyyət növləri"

Elmi sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Fuad Məmməd oğlu Bədirov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri doktoru, professor<br>**Eldar Allahyar oğlu Quliyev** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, dosent<br>**Müslümat Allahverdi qızı Allahverdiyeva** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Müşfiqə Əjdər qızı Məmmədova** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Gülnarə Sədi qızı Hacıyeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin ED 2.46 Birgə Dissertasiya şurası

| | |
|---|---|
| Birgə Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın həqiqi üzvü,<br>iqtisad elmləri doktoru, professor<br>**Ziyad Əliabbas oğlu Səmədzadə** |
| Birgə Dissertasiya şurasının elmi katibi: ____________ | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Samirə Yaşar qızı Məmmədova** |
| Elmi seminarın sədri: ____________ | iqtisad elmləri doktoru, professor vəzifəsini icra edən<br>**Möhübbət Musa oğlu Hüseynov** |

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə milli iqtisadiyyat perspektivi üzrə 2016-2020-ci illəri əhatə edən və 2025-ci ildən sonrakı dövr üçün uzunmüddətli məqsədləri ehtiva edən Strateji Yol Xəritələri və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" konsepsiyasında (02 fevral 2021-ci il) ölkə iqtisadiyyatının strateji hədəflərində sənayenin ümumi həcmində innovasiya məhsullarının xüsusi çəkisinin artırılması, iqtisadiyyatın rəqabətqabiliyətliyini yüksəldən sektorlarda məhsuladarlığın yüksəldilməsi, yüksək texnoloji istehsal kompleksləri hesabına yeni texnoloji bazanın formalaşdırılması, sənaye istehsalında regionların payının artırılması, qeyri-neft sənayesinin ixrac yönümündə inkişaf etdirilməsi, dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi və s. kimi məsələlər prioritetlik təşkil edir.

Eyni zamanda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qaydışa dair 1-ci Dövlət Proqramı"nın (16 noyabr 2022-ci il) məqsədlər bölməsində iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi və sənaye potensialının gücləndirilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdur.

Qarşıya qoyulmuş vəzifələrə nail olunması əhəmiyyətli dərəcədə ölkənin sənaye müəssisələrinin innovasiya fəaliyyəti ilə müəyyən edilir.

Müasir mərhələdə ölkəmiz üçün əsas məqsəd məhsuldarlığın artırılması yolu ilə iqtisadiyyatın prioritet sahələrinin və emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsidir.

Deməli, orta və uzunmüddətli perspektivdə ölkə iqtisadiyyatının inkişafı onun innovasiya xarakterinin gücləndirilməsi, sənayenin moderinləşdirililməsi və quruluşunun təkmilləşdirilməsi, onun ixracat potensialının artırılması, elm tutumlu və innovasiya fəaliyyətinin genişləndirilməsi ilə bağlıdır. Bu isə yeni iqtisadi modelə və strateji hədəflərə adekvat iqtisadiyyatın moderinləşdirilməsi və bu prosesdə

sənayenin, o cümlədən emal sənayesinin rolunun gücləndirilməsi və onun innovasiyalı strategiyasının formalaşdırılması və quruluşunun təkmilləşdirilməsi, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi, mövcud olan elmi – tədqiqat bazasının dərinləşdirilməsini və inkişaf etdirilməsini tələb edir.

Müasir mərhələdə bir çox məsələlər, o cümlədən sənayenin rəqabətqabiliyyətinin və ixracat potensialının yüksəldilməsinə təsir edən amillərin müəyyənləşdirilməsi, sənayenin prioritet inkişaf istiqamətlərinin əsaslandırılması və onların fəaliyyətinin dəstəklənməsinin mükəmməl mexanizminin formalaşdırılması, sənaye klasterlərinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, bu istiqamətdə qanunvericilik bazasının təkmilləşdirilməsi, sənayenin sabit inkişafının və ixracat potensialının, emal sənayesində innovasiya fəallığının yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, həmçinin sənayeləşmə prosesinin nəticələrinin qiymətləndirilməsi metodikasının işlənib hazırlanması və s. öz aktuallığı ilə diqqəti cəlb edir və bunların elmi təqiqatların predmetinə daxil edilməsini zəruri edir.

Bütün bu qeyd edilənlər ölkə iqtisadiyyatının aparıcı sahəsi olan emal sənayesinin qloballaşan müasir dünya meyillərinə və qanunauyğunluqlarına cavab verən yüksək texnoloji baza əsasında inkişafını zəruri edir ki, bu da yeni iqtisadi inkişaf modelinin tələbləri nəzər alınmaqla sənayenin, xüsusilə emal sənayesinin inkişafının nəzəri-metodoloji və praktiki tərəflərinin elmi tədqiqinin aparılmasını tələb edir. Dissertasiya işinin mövzusu da məhz bunların konteksində seçilmiş və əsaslandırılmışdır.

Mövzunun işlənmə dərəcəsinə aid isə onu bildirmək olar ki, son dövrlərdə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, emal sənayesinin inkişafı, onun rəqabətqabiliyyətliyinin və innovasiya fəallığının yüksəldilməsi kimi problemlər dünyanın və ölkənin iqtisadçı alimləri tərəfindən geniş tədqiq edilir.

Ölkədə innovasiyalı iqtisadiyyatın formalaşdırılmasının və sənayenin inkişafının, onun innovasiya fəallığının yüksəldilməsinin nəzəri - metodoloji problemlərinin araşdırılmasında və öyrənilməsində bir sıra iqtisadçı alimlərin, xüsusilə Z.Ə.Səmədzadə, E.A.Quliyev, B.X.Ataşov, Z.M.Nəcəfov, İ.A.Aslanzadə,

M.M.Hüseynov, İ.H.Alıyev, Q.A.Manafov, A.Ş.Şəkərəliyev, Ə.P.Babayev, V.T.Novruzov, S.M.Yaqubov, T.N.Əliyev, Ş.T.Əliyev, A.H.Tağıyev, G.Ə.Əhmədov, E.N.Kərimov, Ə.H.Nağıyevin və s. böyük əməyi vardır.

Xarici ölkələrin iqtisadçı alimlərindən İ.Şumpeter, M.Porter, P.Druker, R.A.Fatxutdin, D.İ.Kokurin, V.Y.Qorfinkel, Y.P.Morozov, E.A.Karpov, İ.T.Balabanov, V.K.Kondratyev və s. innovasiya prosesinin, sənayenin inkişafının, onun innovasiya imkanlarının və rəqabətqabliyyətinin yüksəldilməsinin nəzəri və praktiki aspektlərini tədqiq etmişlər.

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatının inkişafının müəyyənləşdirilmiş strateji hədəflərində innovasiya yönümlüyünün gücləndirilməsi, bu prosesdə ölkə sənayesinin, xüsusilə emal sənayesinin rolunun gücləndirilməsi prioritet vəzifələr kimi müəyyənləşdirilmişdir. Bu isə innovasiyalı inkişaf modelinin formalaşdırılmasının, bu prosesdə emal sənayesinin rolu və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinin, rəqabətqabiliyyətliyinin yüksəldilməsnin və innovasiya imkanlarının genişləndirilməsinin nəzəri-metodoloji və praktiki tərəflərinin araşdırmasına diqqətin artırılmasını zəruri etmişdir. Bu problemlərin müəyyən aspektlərii iqtisadiçı alimlər tərəfindən öyrənilsə də, bu prosesin çoxşaxəliliyi onun hələ də kifayət səviyyədə tədqiq edilməyən cəhətlərinin olduğunu deməyə əsas verir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikası iqtisadiyyatının sənaye sektoru, xüsusilə onun emal sənayesi və bura daxil olan müəssisə və təşkilatların toplusu təşkil edir.Tədqiqatın predmeti-ölkənin emal sənayesinin inkişaf xüsusiyyətlərinin və innovasiya imkanlarının aşkar edilməsi prosesində istifadə edilmiş üsul və vasitələrin, eləcə də makro və mikro səviyyələrdəki iqtisadi münasibətlər və qanunauyğunluqların məcmusudur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ölkədə innovasiyalı iqtisadi inkişaf modelinin formalaşdırılmasında emal sənayesinin imkanlarını və onun inkişafının prioritet istiqamətlərini müəyyən etməkdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin

yerinə yetirilməsi zəruri hesab edilmişdir:

- dayanıqlı iqtisadi artımın təmin edilməsinin mühüm amili kimi innovasiyanın nəzəri əsaslarını araşdırmaq;
- dünya emal sənayesinin müasir vəziyyətini araşdırmaq və inkişaf meyllərini müəyyən etmək;
- yeni iqtisadi reallıqlar şəraitində ölkənin sənaye siyasətinin əsas istqamətlərini əsaslandırmaq;
- ölkə sənayesinin, o cümlədən emal sənayesinin müasir vəziyyətini təhlil etmək;
- emal sənayesinin innovasiya imkanlarını müəyyənləşdirən amilləri təsnifatlaşdırmaq;
- Azərbaycanın emal sənayesinin innovasiya fəallığının yüksəldilməsi istiqamətlərini araşdırmaq;
- ölkənin emal sənayesinin rəqabətqabiliyyətliyinin və ixracat imkanlarının yüksəldilməsinə təsir edən amilləri müəyyənləşdirmək;
- ölkə iqtisadiyyatının innovasiya yönümlülüyünün gücləndirilməsi prosesində emal sənayesinin imkanlarının və onun inkişaf prioritetlərinin əsaslandırılması üzrə nəzəri və praktiki tövsiyələr işləyib hazırlamaq.

**Tədqiqat metodları.** Tədqiqat işində məqsəd və vəzifələrə müvafiq olaraq müşahidə, sistemli yanaşma, iqtisadi statistik təhlil, müqayisə, məntiqi ümumiləşdirmə, proqnozlaşdırma və eləcə də sintez metodlarından istifadə edilmişdir.

Tədqiqatın nəzəri-metodoloji bazasını ölkəmizin və xarici ölkələrin iqtisadçı alimlərinin emal sənayesinin rolu və innovasiyalı iqtisadiyyatın formalaşdırılmasında inkişaf perspektivlərinə həsr olunmuş əsərləri, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və digər mərkəzi icra hakimiyyəti orqanlarının rəsmi internet resursları təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- milli iqtisadiyyatın moderinləşdirilməsinin, dayanıqlı iqtisadi artımın təmin edilməsinin və dünya bazarında ölkənin rəqabətqabiliyyətliyinin artırılmasının mühüm amili innovasiya fəaliyyətdir. Odur ki, innovasiyalı inkişafın amilləri ilə sənaye

sektorunun əlavə dəyərinin artımı arasındakı əlaqə və bu kontekstdə etibarlı, keyfiyyətli və səmərəli sənaye siyasətinin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

- qlobal çağırışlar və dünya bazarının inkişafı ixrac yönümlü yüksək texnoloji sənayeninin inkişafını tələb edir. Emal sənayesi tədqiqat və işləmələrin güclü hərəkətvericisi kimi çıxış edir və bu zaman elmi potensialın, istehsalın və biznesin inteqrasiyası və sinergetik təsiri əhəmiyyətli rol oynayır;
- innovasiyalı inkişafın dərin və hərtərəfli təhlili innovasiya fəaliyyətinin nəticələri, strukturu haqqında aktual və etibarlı informasiya bazasının formalaşdırmasını tələb edir. Həmin göstəricilər dəsti innovasiya fəaliyyətinin həyata keçirilməsinin resurslarını və onun nəticələrini xarakterizə etməyə imkan verməlidir.
- Azərbaycanda sənayenin digər sahələri ilə müqayisədə emal sənayesinin fəaliyyət səmərəliliyini və rəqabətqabiliyyətliyini təmin edən amillərin tətbiqi səviyyəsi və bütövlkdə səmərəliliyi zəifdir. Belə ki, 2021-ci ildə ölkədə istehsal edilmiş Ümumi Daxili Məhsulun 17,1%-i emal sənayesinin payına düşmüşdür. Müasir mərhələdə ölkənin emal sənayesində innovasiyalı inkişafa mane olan iqtisadi, istehsal və digər əhəmiyyətli amillərin mövcudluğu və onların aradan qaldırılması daim diqqət mərkəzində saxlanılmalıdır;
- innovasiyalı inkişaf səviyyəsi ilə rəqabətqabiliyyətlik arasındakı asılılığın qiymətləndirməsi kriteriyaların (göstəricilərin) düzgün seçilməsi ilə müəyyən olunur. Ona görə də, ölkənin emal sənayesinin fəaliyyət səmərəliliyinin və rəqabətqabiliyyətliyinin yüksəldilməsi məqsədilə iqtisadiyyatının inkişafının strateji vəzifələrinə uyğun həyata keçirilən sistemli tədbirlərdə innovasiyalı və yüksək texnoloji kriteriyalara prioritetlik verilməsi təmin edilməlidir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- innovasiyalı inkişaf modelinin formalaşdırılmasının nəzəri əsasları araşdırılmış və müəyyən ümumiləşdirmələr aparılmışdır;
- dünya emal sənayesinin inkişaf meyli və dinamikası, struktur dəyişikliyi araşdırılmış və mühüm xüsusiyyətləri aşkar edilmişdir;

- qlobal rəqabət və xarici mühit amillərinin təsirinin artdığı şəraitdə ölkənin sənaye siyasətinin prioritetləri işlənib hazırlanmışdır;
- informasiya bazasının verdiyi imkanlar daxilində ölkənin sənaye sektorunun, o cümlədən emal sənayesinin müasir vəziyyəti təhlil edilmiş və onun inkişaf meylləri əsaslandırılmışdır;
- innovasiyalı inkişafın təhlili üçün statistik göstəricilər sistemi formalaşdırılmışdır;
- emal sənayesinin innovasiya fəallığına və ixracat imkanlarına təsir edən amillərin təsnifatı yeni tələblər baxımından dəqiqləşdirilmişdir;
- Azərbaycanda emal sənayesinin, onun innovasiya fəallığının artırılması, rəqabətqabiliyyətliyinin yüksəldilməsinin əsas istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Elmi-nəzəri əhəmiyyəti baxımından dissertasiya işi bu mövzu ətrafında gələcəkdə aparılacaq tədqiqatlar üçün sanballı mənbə ola bilər. Tədqiqat prosesində əldə edilən nəzəri, metodiki və praktiki nəticələr, təklif və tövsiyələr ölkədə innovasiyalı inkişaf modelinin formalaşdırılması üzrə strateji vəzifələrin yerinə yetirilməsində, mövcud reallıqlar konteksində sənaye siyasətinin prioritet istiqamətlərinin işlənib hazırlanmasında, emal sənayesində innovasiya fəallığının gücləndirilməsi, onun rəqabətqabiliyyətliyinin yüksəldilməsi istiqamətlərinin əsaslandırılması üzrə konkret layihələrin və proqramların hazırlanmasında istifadə oluna bilər.

Bundan əlavə, dissertasiya işində irəli sürülmüş elmi-nəzəri müddəalardan iqtisad yönümlü ali təhsil müəssisələrində dərsliklərin və dərs vəsaitlərinin, mühazirə mətnlərinin hazırlanmasında istifadə etmək mümkündür.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat dövründə dissertasiya işinin mövzusu Azərbaycan Kooperasiya Universitetinin "Aqrar sahənin və sənayenin iqtisadiyyatı" kafedrasının elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmuş və daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə olunmuş və bəyənilmişdir.

Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 7 məqalədə (1-i xaricdə olmaqla) və 4 tezisdə (1-i xaricdə olmaqla) öz əksini tapmışdır. Konfrans materialları sırasında "Azərbaycanın emal sənayesinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətləri" (Bakı, 2017), "Инновационный потенциал обрабатывающей промышленности и факторы его развития" (Москва, 2020), "Azərbaycanda emal sənayesinin inkişafında Heydər Əliyevin rolu" (Bakı, 2023) adlı tezisləri göstərmək olar.

Tədqiqat zamanı müəllifin həmçinin "Sənaye müəssisələrinin innovasiya potensialının qiymətləndirilməsi" (Bakı-2017), "Qlobal rəqabət şəraitində innovasiyalı iqtisadiyyatın inkişafının bəzi məsələləri" (Bakı-2017), "Структура мировой промышленности: тенденция и стратегия развития" (Москва-2017), "Azərbaycanda emal sənayesinin ixracat imkanlarının artırılması istiqamətləri" (Bakı-2018), "Emal sənayesinin inkişafı şəraitində innovasiya klasterlərinin yaradılması" (Bakı-2023) adlı məqalələri dərc olunmuşdur.

Dissertasiyanın nəticəsində əldə edilmiş tövsiyələr və təkliflər Azərbaycan Respublikası"Az-Granata" MMC-yə təqdim edilmiş və istifadə üçün qəbul olunmuşdur (14 noyabr 2017-ci il tarixli 96 saylı arayış).

**Dissertasiya işinini yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (12670 işarə), I fəsil (75621 işarə), II fəsil (64076 işarə), III fəsil (75792 işarə), nəticə (8977 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (17314 işarə) üzrə ümumi həcm 276048 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, diaqramlar, qrafiklər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 237136-dır.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, həmçinin aprobasiyası və tətbiqi öz əksini tapmışdır.

Dissertasiya işinin **"İnnovasiyalı inkişaf modelinin və sənaye siyasətinin formalaşdırılmasının nəzəri əsasları" adlanan birinci fəslində** dayanıqlı iqtisadi artımın təmin edilməsində innovasiyanın mühüm rolu, sənaye siyasətinin əsas konturları, dünya emal sənayesində çağdaş beynəlxalq təcrübə məsələləri araşdırılmışdır.

Müasir şəraitdə innovasiyalı inkişaf və bununla əlaqədar olaraq iqtisadiyyatın rəqabətqabiliyyətliyinin yüksəldilməsi problemi, həm elmi tədqiqat, həm də praktiki təsərrüfat fəaliyyəti baxımından olduqca əhəmiyyətlidir. Bu, iqtisadiyyatın qloballaşması, istehsalın klassik amillərinin fəaliyyətinin inkişaf resurslarının məhdudluğuna transformasiyası, siyasi, demoqrafik və ekoloji problemlərin, həmçinin regional differensasiyanın artması ilə əlaqədar olaraq iqtisadi fəaliyyət şəraitinin əhəmiyyətli şəkildə dəyişməsi ilə şərtlənir. [1] Belə şəraitdə rəqabət mübarizəsində ön plana yalnız mənfəətin maksimumlaşdırılması və səmərəliliyin yüksəldilməsi deyil, həm də iqtisadi sabitliyin və təhlükəsizliyin, biznes dəyərinin müsbət dinamikasının təmin edilməsi məsələləri çıxır. İqtisadi baxımdan inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, rəqabət mübarizəsində innovasiya amili birinci yerdə durur. İnkişafın innovasiya yolu rəqabətqabiliyyətliyin yüksəldilməsinin başlıca istiqamətlərindən biridir. Başqa sözlə desək, müasir dövrdə innovasiya ünsürlərinin formalaşdırılması və fəaliyyəti yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın vacib atributlarından hesab edilir.

Texniki tərəqqi uzunmüddətli artımın əsas amillərindən biridir. Böyük ehtimalla təsdiq etmək olar ki, qarşıdakı dövrdə innovasiyalı

---

[1] Тургаев, С.А. Проектный подход в управлении инновационным развитием как фактором повышения конкурентоспособности предприятия, дисс.кан. экон.наук, Санкт-Петербург: – 2014, – 169 с.

inkişaf nəticəsində istehsal prosesi köklü şəkildə dəyişəcək və insanların həyat keyfiyyəti yüksələcəkdir. Texniki tərəqqi və innovasiyasız sənayeləşmə prosesi, onsuz isə inkişaf mümkün deyildir. Şübhəsiz, texnologiya nəticəsində istehsal prosesi daha səmərəli olur, ölkənin rəqabətqabiliyyətliyi yüksəlir və bazarın tərəddüdləri ilə bağlılğı azalır. Struktur dəyişiklik, yəni iqtisadiyyatın əmək tutumluluğundan texnoloji tutumluluğa keçilməsi iqtisadi moderinləşdirmə amilidir. Struktur dəyişikliklərin nəticəsində ölkə sabit və uzunmüddətli inkişafın zəruri imkanlarını əldə etməyə nail olur.[2]

Araşdırma göstərir ki, müasir dünyanın inkişafı, sabit və uzunmüddətli iqtisadi artımın təmin edilməsi daha çox elmi-texniki tərəqqi və milli iqtisadiyyatın rəqabətqabiliyyətliyini ortaya çıxaran istehsalın əsas amillərinin intelektuallaşdırılması səviyyəsi ilə müəyyən edilir.

İ.e.d. E.Ə.İbrahimov innovasiyaların qlobal əhəmiyyəti barədə yazır: *“Qloballaşma şəraitində innovasiya və modernləşmə fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişlənməsi ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovatik yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi sürətlənir”.*[3]

Deməli, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, strateji planda iqtisadiyyatın rəqabətqabiliyyətliyinin yüksəldilməsi, dünya bazarında ixracat mövqeyinin möhkəmləndirilməsi problemlərinin həll edilməsi yalnız innovasiyalı inkişaf əsasında mümkündür.

Tədqiqatçılar ölkənin dayanıqlı iqtisadi inkişafı ilə innovasiya amilinin harmonik əlaqəsinin mühüm əhəmiyyətini qeyd edirlər. Ölkənin tanınmış iqtisadçılarından Əməkdar elm xadimi, prof. B.X.Ataşov özünün “Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika)” adlı monoqrafiyasında qeyd edir: *“...innovasiyanın məqsədi-idarəetmə obyektini dəyişdirmək,yeni elmi-*

---

[2] Bayramov V. Azərbaycanda sənayenin diversifikassiyası məsələləri // – Bakı: AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, – 2015(6), – səh.142-152.

[3] Ибрагимов Э.А. Инновация и модернизация как необходимое условие устойчивого экономического развития в условиях глобализации. // Экономика и предпринимательство, Москва, № 9 (110) 2019, стр. 50-59.

*texniki, iqtisadi və sosial səmərə əldə etməkdir. İnnovasiya – yeni və ya təkmilləşdirilmiş məhsul (xidmət), texnika, texnologiya, istehsalın və idarəetmənin təşkili şəklində təcəssüm etmiş və müxtəlif effektlər verən elmi biliklərin kommersiyalaşdırılması kimi qiymətləndirilir. Müasir cəmiyyətdə, iqtisadiyyatda, sosial proseslərdə, ətraf mühitin vəziyyətində yaranmış ümdə problemləri yalnız innovasiyalı inkişaf strategiyası sayəsində ugurla həll etmək mümkündür".*[4]

İnnovasiya prosesinin ilkin mərhələsi informasiyadır. İctimai istehsalın informasiyalaşdırılması iqtisadi artımın innovasiya modelinin yaranmasına gətirib çıxarmışdır. Bütün innovasiya müəyyən informasiya mühitində yaranır. İnnovasiya prosesinin ilkin mərhələsində gələcək inkişafın məqsəd və istiqamətlərinin müəyyənləşdirilməsi baş verir. Bir qayda olaraq konkret innovasiyanın işlənib hazırlanması zəruriliyi istehlakçıların tələbləri ilə diqtə olunur.

İnnovasiya prosesinin ikinci mərhələsində biliyin formalaşması və toplanması baş verir. Bu prosesi həyata keçirən obyektlər kimi universitetlər, elmi-tədqiqat institutları və mərkəzləri, laboratoriyalar və s. çıxış edir. İ.e.d. M.M.Hüseynov aqrar sferanın innovativ inkişafı problemlərinə həsr etdiyi monoqrafiyasında qeyd edir: *"Ümumiyyətlə, innovasiya prosesi elmi biliklərin, elmi ideyaların, kəşflərin və ixtiraların innovasiyaya çevrildiyi bütöv bir dövrü əhatə edən bir proses kimi düşünülə bilər".*[5]

Müasir dövrdə texnoloji və iqtisadi üstünlüyə, inkişaf etmiş innovasiyalı iqtisadiyyata malik ölkələrə ABŞ, Yaponiya, Almaniya, Böyük Britaniya, Fransa və s. aid edilir. Həmin ölkələr dünyada lider mövqeylərini təmin etməyə qadir müxtəlif innovasiya məhsullarının yaranmasına gətirib çıxaran fundamental elmi tədqiqatlar sahəsində fəal işlər həyata keçirirlər.

İnkişaf etmiş əksər dünya ölkələrində innovasiya, ixrac və sosial yönümlülüyün uzlaşdırılması və milli innovasiya sistemi konsepsiyası

---

[4] Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlik problemləri (nəzəriyyə və praktika). B.X.Ataşov / Bakı: – 2017, – səh. 474.

[5] Hüseynov, M.M. Aqrar sferanın innovativ inkişafı problemləri. Monoqrafiya. Bakı, "Kooperasiya" nəşriyyatı, 2023, – 304 s.

əsasında konseptual olaraq innovsiya siyasətinin işlənib hazırlanması daimi olaraq həyata keçirilir.

Sosial-iqtisadi inkişaf konsepsiyasına uyğun olaraq ölkədə innovasiya tipli iqtisadiyyatın formalaşdırılması nəzərdə tutulur ki, bu da innovasiya mühitinin, milli innovasiya sisteminin yaradılması, səmərəli fəal innovasiyalı müəssisə və təşkilatların ortaya çıxması və fəaliyyəti ilə bağlıdır. Ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliyinin yüksəldilməsinin mühüm istiqaməti yüksək texnoloji sənayenin inkişafıdır. Bunda elmi əsaslandırılmış, balanslaşdırılmış sənaye siyasəti xüsusi rol oynayır.

İqtisadiyyat sahələrinin, müəssisə və təşkilatların fəaliyyətinin həyata keçirilmiş tədqiqi və təhlili göstərir ki, müasir dövrdə sənaye siyasətinin işlənib hazırlanması üçün bir sıra əsas vəzifələrin həll edilməsi zəruridir: ölkənin milli təhlükəsizliyini təmin edən sahələrin dəstəkənməsi və onların tarazlı inkişafını təmin etmək, sahəvi siyasətin sosial yönümlüyünü təmin etmək, infrastruktur sahələrin inkişaf etdirmək, sənaye məhsullarının rəqabətqabiliyyətini yüksəltmək. Bunlar və digər amillər bütövlükdə müəssisələrin, sahələrin və iqtisadiyyatın inkişafına əhəmiyyətli təsir göstərir. Ona görə də müasir dövrdə əsaslandırılmış sənaye siyasəti və innovasiyalı iqtisadiyyatın inkişafı məsələlərinə daha çox diqqət yetirilməlidir.

Beynəlxalq inkişaf institutlarının sənədlərində sənaye siyasəti sektorlar və texnologiyalar üzrə iqtisadi fəallığın strukturunun, yaxud biznes mühitinin yaxşılaşdırılmasına istiqamətlənən dövlət siyasəti kimi şərh edilir. Hesab edilir ki, bu cür yanaşma belə müdaxilənin olmaması ilə müqayisədə ictimai rifah və iqtisadi artım üçün daha əlverişli perspektivi təmin edir.

Həyata keçirilən sənaye siyasətinin cari vəziyyətinin və onun nəticələrinin qiymətləndirilməsinə, perspektiv istiqamətlərinin əsaslandırılmasına, regional xüsusiyyətlərinin aşkar edilməsinə imkan verən monitorinq sisteminin formalaşdırılması da vacibdir. Sənaye siyasətinin həyata keçirilməsində uğura nail olan ölkələrə dünya bazarına istiqamətlilik, xarici investisiyanın cəlb edilməsi, qlobal rəqabətqabiliyyətlik kimi xüsusiyyətlər xasdır. Qloballaşma dəyər yaradılmasının qlobal zəncirinin qurulmasını, müasir səriştə və bacarıqların genişləndirilməsini və transferini, strateji tərəfdaşların

seçilməsini və beynəlxalq texnoloji alyansların yaradılmasını tələb edir. Odur ki, ölkənin sənaye siyasətində bu aspektlərin nəzərə alınması zəruridir.

XX əsrin sonu və XXI əsrin əvvəllərində xidmət sferasının sürətli inkişafı, sənayedə əmək məhsuldarlığının artımı və dünya bazarında beynəlxalq rəqabətin güclənməsi dünyanın ÜDM-da ikinci sektorun, birbaşa emal sənayesinin xüsusi çəkisinin faktiki olaraq aşağı düşməsinə gətirib çıxarmışdır. Lakin artıq 2000-ci ilin əvvələrindən iqtisadiyyatın ikinci sektorunun, birbaşa olaraq emal sənayesinin xüsusi çəkisi artmağa başlamışdır. Buna ilk növbədə Çində və digər ölkələrdə, məsələn Cənubi Koreyada, Sinqapurda, Malayziyada, Hindistanda, Brazilyada, Meksikada, İndoneziyada və s. sənayenin sürətli inkişafı və iqtisadiyatın ikinci sektorunda, istehsal xidməti sferasında əhalinin məşğulluğunun artması səbəb olmuşdur [102, 143]. Bu gün xidmət sferası ilə müqayisədə emal sənayesinin iqtisadiyyat üçün yüksək əhəmiyyətə malik olması fikrinin aktuallığını bu sektorlar arasındakı fərqin aradan götürülməsi azaldır və innovasiyanın və sənaye imkanlarının təmin edilməsində xalis istehsalın rolu daha mürəkkəb xarakter daşıyır. Müasir dövrdə dünya Ümumi Milli Məhsulunun 16%-i emal sənayesinin payına düşür. Bir sıra dünya ölkələri üzrə bu göstərici, o cümlədən Böyük Britaniyada , Fransada 10%, ABŞ-da 12%, Hindistanda 13%, Rusiyada 14%, İtaliyada 15%, Meksikada 17%, Almaniyada 19%, Yaponiyada 20%, İndoneziyada 25%, Çənubi Koreyada 28%, Çində 33% təşkil etmişdir.[6] Milli iqtisadiyyatda emal sənayesinin əhəmiyyəti çoxlu sayda amillərdən - iqtisadi inkişaf səviyyəsi, emal sənayesi mallarına tələb, emal sənayesi sahələrindən xidmət sferası sahələrinə əlavə dəyər zəncirinin ayrı-ayrı ünsürlərinin autsorsinq dərəcəsi, sənaye siyasətinin xarakteri, emal sənayesinin stimullaşdırılması istiqamətləri, innovasiya fəallığı və s. asılıdır. Bu dövrdə şərti xalis məhsulun həcmi (istehsalına çəkilən cari material xərcləri çıxılmaqla ümumi məhsul xalis məhsuldan və əsas istehsal fondlarına hesablanmış amortizasiyadan ibarətdir) artmışdır.

---

[6] Кондратьев, В. Мировая обрабатывающая промышленность: сдивиги в конкурентных издержках, «Мировая экономика и международные отношения», – №7, – 2015, – стр.22-27

Bu gün də emal sənayesi tədqiqat və işləmələrin güclü hərəkətvericisi kimi çıxış edir. Emal sənayesi, əmək məhsuldarlığının yüksəldilməsini və innovasiyanı, həmçinin əhalinin rifah səviyyəsinin artımın stimullaşdıraraq həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında mühüm rol oynamaqda davam edir. Emal sahələrinin səmərəli strukturu dövlətin fəal sənaye siyasətinin daimi obyekti və qlobal bazarda beynəlxalq rəqabətqabiliyyətlik amili kimi çıxış edir.

Qlobal miqyasda sənayeləşmə prosesi davam edir. Son 20 il ərzində sənayecə inkişaf etmiş ölkələrdə yaradılan əlavə dəyərin artımı həmin ölkələrin ÜDM-nun illik artımından bir qədər aşağı olmuşdur. Buna baxmayaraq inkişaf etmiş regionlardan istehsal güclərinin yerdəyişməsi baş verən inkişaf etməkdə olan ölkələrdə sənaye uğurla inkişaf etmişdir. Dünya sənaye istehsalında və ixracında bu qrup ölkələrin xüsusi çəkisi durmadan artır və gələcəkdə bu meyl saxlanacaqdır. Deməli, inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın bu seqmentinin fundamental ərazi dəyişikliyi başlıca dünya meylini xarakterizə edir.

**Dissertasiya işinin ikinci fəslində** cədvəl, sxem və şəkillərdən geniş istifadə edilməklə Azərbaycanda emal sənayesinin mövcud durumu ətraflı təhlil edilmiş, ölkədə innovasiya fəaliyyətinin tədqiqində informasiya təminatı və statistik göstəricilər sisteminə aydınlıq gətirilmiş, emal sənayesinin innovasiya potensialı və ona təsir edən amillər tədqiq edilmişdir.

İnnovasiya layihələri çərçivəsində ölkə iqtisadiyyatının sənayeləşdirilməsi istənilən dövlətin iqtisadi atrımının mühüm amili kimi çıxış edən sənayeyə əsaslanır. Sənaye istehsalı istənilən maddi istehsalın möhkəm fundamenti, ölkənin ümumi daxili məhsulunun əsas hissəsini formalaşdıran mürəkkəb və çoxsəviyyəli sistemdir. İqtisadi baxımdan inkişaf etmiş ölkələrdə sənaye istehsalının ümumi daxili məhsulda xüsusi çəkisi 20-40% arasında tərəddüd edir və ölkələrin bir sıra makroiqtisadi göstəricilərinin dinamikasına müsbət təsir göstərir.[7]

---

[7] Ермолаева, Е.В. Индустриально-инновационное развития экономики и модернизация промышленности в России, дисс. по соис. кан. экон. наук., М., – 2016, –185 с.

Ölkədə istehsal edilmiş sənaye məhsulunun ümumi həcmində emal sahəsinin payı 2010-cu ildə 20,4%, 2018-ci ildə 21,9%, 2019-cu ildə 25,1%, 2020-ci ildə 31,8% və 2021-ci ildə isə 28,8% təşkil etmişdir (cədvəl 1).

**Cədvəl 1.**

**2010-2021-ci illərdə Azərbaycan Respublikasında emal sənayesinin əsas göstəriciləri**

| Göstəricilər | 2010 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2021-ci ildə 2010-cu illə müqayisədə, %-lə |
|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 1909 | 1826 | 2034 | 2330 | 2515 | 2777 | 145,5 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, mlrd. manat | 28,0 | 29,4 | 47,7 | 47,0 | 37,3 | 55,2 | 197,1 |
| Ölkədə istehsal edilmiş sənaye məhsulunun ümumi həcmində sahənin payı | 20,4 | 24,4 | 21,9 | 25,1 | 31,8 | 28,8 | 181,1 |
| Məşğul əhalinin sayı, min nəfər | 208,9 | 249,1 | 254,8 | 262,6 | 258,3 | 269,1 | 128,8 |
| Sənayedə məşğul olanların ümumi sayında sahə işçilərinin payı | 68,2 | 72,1 | 70,1 | 72,2 | 72,4 | 73,0 | 107,0 |
| Əsas kapitala investisiyalar, mln. manat | 510,2 | 652,6 | 756,8 | 1148,0 | 1414,2 | 1193,7 | 2,3 dəfə |
| Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı | 11,9 | 6,8 | 8,9 | 12,4 | 15,6 | 14,9 | 125,2 |

Rəsmi statistikanın məlumatları sənayenin digər sahələri ilə müqayisədə emal sənayesinin fəaliyyətində səmərəliliyi təmin edən amillərin tətbiqi səviyyəsinin və bütövlkdə səmərəliliyin zəif olduğunu göstərir. Belə ki, 2021-ci ildə mədənşıxarma sənayesində

işləyənlər ölkə iqtisadiyyatında muzdla işləyənlərin ümumi sayının 0,8%-ni təşkil etmiş və sənaye məhsulunun ümumi həcminin 65,6%-ni yaratdığı halda, emal sənayesində bu göstəricilər müvafiq olaraq 5,4% və 28,8% olmuşdur (cədvəl 1). 2010-cu ildə ölkədə istehsal edilmiş təxminən 28 mlrd. manatlıq sənaye məhsulunun təxminən 20,8 mlrd. manatı, yəni 74,3%-i mədənşıxarma sənayesinin, 5,7 mlrd manatı, yəni 20,4%-i emal sənayesinin payına düşmüşdür. 2021-ci ildə bu göstəricilər müvafiq olaraq 55,2 mlrd. manat, o cümlədən mədənşıxarma sənayesi 36,2 mlrd. manat, yəni 65,6% və 15,9 mlrd. manat, yəni 28,8% təşkil etmişdir. Göründüyü kimi, 2010-cu illə müqayisədə 2021-ci ildə emal sənayesinin payı 8,4 bənd artmışdır. Eyni zamanda təhlil edilən dövrdə emal sənayesinin məhsulunun həcmində davamlı artım müşahidə olunmuşdur.

2 saylı cədvəlin məlumatlarından göründüyü kimi, 2010-2021-ci illərdə mədənçıxarma sənayesində əmək məhsuldarlığının dinamikasına nə sabit artım, nə də sabit azalma xas olmuşdur.

Ölkə iqtisadiyyatının innovasiyalı inkişafının müasir mərhələsində innovasiya statistikasının mühüm vəzifələrindən biri innovasiya sferalarının inkişafının müxtəlif tərəfləri haqqında statistik informasiya ilə vaxtında, etibarlı və tam təmin etməkdir. Bu zaman tətbiq edilən bütün göstəricilər qrupu BMT-nin Baş Assambleyasının qəbul etdiyi 10 əsas prinsipə uyğun olmalıdır. Deməli, innovasiya fəaliyyəti haqqında informasiya sisteminin formalaşdırılması və inkişafı ölkə üçün aktual məsələdir.

Ölkədə innovasiya fəaliyyətinin tədqiqinin informasiya təminatı dövlətin innovasiya siyasətinin informasiya-analitik sisteminin yaradılmasına imkan verməlidir.

İnnovasiya fəaliyyətinin statistik öyrənilməsinin vacib məsələlərindən biri statistik müşahidə formalarının işlənib hazırlanmasıdır. Onlar innovasiya fəaliyyəti haqqında informasiya əldə edilməsinin əsas mənbələri kimi çıxış edir və bu sahə statistikasının beynəlxalq tövsiyyələrə uyğun tam icmalını verməlidir.

Beləliklə, innovasiya sferasının informasiya təminatını sisteminin araşdırılması ölkənin innovasiyalı inkişafının təhlili üçün zəruri olan göstəricilərin minimum dəstini müəyyənləşdirməyə imkan verir. Fikrimizcə, müəyyənləşdirilmiş statistik göstəricilər sisteminin

köməyi ilə ölkədə (regionlarda) innovasiya proseslərini hərtərəfli və etibarlı şəkildə xarakterizə etmək mümkündür.

**Cədvəl 2.**

**2010-2021-ci illərdə Azərbaycan Respublikasında emal sənayesinin fəaliyyətini xarakterizə edən bəzi göstəricilər**

| | 2010 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2021-ci ildə 2010-cu illə müqayisədə, %-lə |
|---|---|---|---|---|---|---|---|
| Mədənçıxarma sənayesində məşğul olanların ölkə iqtisadiyyatında məşğul olanların ümumi sayında xüsusi çəkisi | 1,0 | 0,8 | 0,8 | 0,8 | 0,8 | 0,8 | -0,2 bənd |
| Emal sənayesində məşğul olanların ölkə iqtisadiyyatında məşğul olanların ümumi sayında xüsusi çəkisi | 4,8 | 5,2 | 5,2 | 5,3 | 5,3 | 5,4 | +0,6 bənd |
| Mədənşıxarma sənayesi məhsulunun həcmi, mln. manat | 20862 | 28034 | 34932 | 32858 | 22836 | 36222 | 173,6 |
| Mədənçıxarma sənayesində məşğul olanların sayı, min nəfər | 41,5 | 37,9 | 40,3 | 40,4 | 40,1 | 39,4 | 95,0 |
| Mədənçıxarma sənayesində əmək məhsuldarlığı, min manat | 502,7 | 739,7 | 866,8 | 813,3 | 569,5 | 919,3 | 182,9 |
| Emal sənayesi məhsulunun həcmi, mln. manat | 5736 | 9724 | 10465 | 11794 | 11848 | 15887 | 2,7 dəfə |
| Emal sənayesində məşğul olanların sayı, min nəfər | 208,9 | 249,1 | 254,8 | 262,6 | 258,3 | 269,1 | 128,8 |
| Emal sənayesində əmək məhsuldarlığı, min. manat | 27,5 | 39,0 | 41,1 | 44,9 | 45,9 | 59,0 | 2,1 dəfə |

Bəzi tədqiqatçılar innovasiya potensialını “innovasiya fəaliyyəti üçün zəruri olan və yeni və təkmilləşdirilmiş məhsulların istehsalında, onların əldə edilməsi texnologiyasında yeniliyin həyata keçirilməsinə yönəldilən intelektual, maliyyə və material resurslarıda daxil olmaqla innovasiya resurslarının məcmusu” kimi səciyyələndirir.

A.Mazin innovasiya potensialını müəssisənin innovasiya fəaliyyətinin həyata keçirməsi imkanlarını əks etdirən mühüm göstəricilərdən biri hesab edir.[8]

İnnovasiya potensialının ayrılmaz tərkib hissəsi kimi təşkilati-idarəetmə potensialını formalaşdırmaq üçün idarəetmənin təşkilati strukturunun innovasiya proseslərinin vəzifələrinə uyğun olması zəruridir. Bu amil nəzərdə tutur: mövcud təşkilati strukturun formalaşma dərəcəsi, struktur bölmələrin və ayrı-ayrı əməkdaşların innovasiya müstəqilliyi, məqsədli işçi qrupunun formalaşdırılması imkanları, təşkilati strukturda innovasiya işləmələri ilə məşğul olan struktur bölmənin olması, təşkilati strukturda müəssisənin innovasiya fəaliyyətinin idarəedilməsini həyata keçirən struktur bölmənin olması.

Beləliklə, müəssisənin innovasiya potensialına birbaşa təsir edən amillərin təsnifatı, sistemləşdirilməsi, təsnifat əlamətlərinin dəqiqləşdirilməsi və daha da dolğunlaşdırılması onun səviyyəsinin müəyyən edilməsi və tənzimlənməsinə imkan verən kompleks göstəricilər sisteminin işlənib hazırlanmasına zəmin yaradır və eyni zamanda sənaye müəssisələrinin, bütövlükdə emal sənayesinin innovasiya potensialının qiymətləndirlməsi metodlarının təkmilləşdirilməsinə imkan verir.

**Dissertasiyanın “Azərbaycan Respublikasında emal sənayesinın innovativ inkişafının prioritet istiqamətləri” adlanan üçüncü fəslində** Azərbaycanda emal sənayesinin innovasiya fəaliyyətinin yüksəldilməsi yolları müəyyənləşdirilmiş, bu sahənin ixracat imkanlarının artırılması mexanizmlərinin təkmilləşdirilməsi və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətləri işlənib hazırlanmışdır.

İnnovasiyanın və innovasiya fəaliyyətinin iqtisadi rolunun

---

[8] Мазин, А. Классификация показателей оценки инновационного потенциала предприятия / А.Мазин // Alma mater. – №5(11), – 2015, – стр.57-60

yüksəlməsi, innovasiya proseslərinin inkişaf tempinin, istiqamət və mexanizmlərinin dəyişməsi dünyanın əksər ölkələrinin inkişaf meyllərini müəyyən edən mühüm amillərdir. Müasir şəraitdə ölkə iqtisadiyyatının mühüm vəzifəsi inkişafın innovasiyalı yoluna keçməsidir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış inkişaf konsepsiyasında" iqtisadiyyatın diversifikasiyasının və şəxsiyyətin yaradıcı potensialının reallaşdırılması üçün şərait yaradılmış və 2 fevral 2021-ci il tarixli sərəncamı ilə qəbul edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" konsepsiyasında dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalət əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi məsələlərinin zərurilyi qeyd edilmişdir.[9] Qarşıya qoyulmuş vəzifələrə nail olunması əhəmiyyətli dərəcədə ölkənin sənaye müəssisələrinin innovasiya fəaliyyəti ilə müəyyən edilir. İqtisadi şəraitin dəyişməsi sənaye müəssisələrinin idarəetmə strategiyasını müəyyən edən mövcud amillərin qeyri-səmərəli olduğunu göstərdi. Nə qədər ki, ölkənin sənaye müəssisələri idarəetmə startegiyalarını innovasiya əsasında qurmayıb, özlərinin texnoloji geriliyini aradan qaldıra bilməyəcək və dünya bazarında rəqabətqabiliyyətli olmayacaqdır.

Müəssisənin innovasiya fəallığı çoxsaylı amillərlə müəyyən edilir. Fikrimizcə, müəssisənin innovasiya fəallığının amillərini iki qrupa bölmək olar. Birincisi, rəqabət, institusional mühit və dövlət siyasəti kimi xarici mühit amilləri, ikincisi, təşkilatın daxili mühit amilləridir. Məsələn, müəssisənin maliyyə, texnoloji, təşkilati resurslarının mövcudluğu, həmçinin onun həcmi, sahəvi mənsubiyyəti, mülkiyyətinin strukturu.

Bizim fikrimizcə, müasir dövrdə açıq innovasiya konsepsiyasının yerli emal sənaye müəssisələrində tətbiqi bir sıra problemlərlə əlaqədar olaraq çətinlik yaradır. Onlardan biri şəffaflığın aşağı

---

[9] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. // Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli Sərəncamı. – Bakı: 2021.

səviyyəsidir. Bundan başqa açıq innovasiya modeli nəzarətin və rəqabət sərhədlərinin itirilməsi riskləri ilə də bağlıdır.

Ölkə iqtisadiyyatının, o cümlədən emal sənayesinin ixracat imkanlarının artırılması və ondan daha səmərəli istifadə edilməsi üçün kompleks tədbirlərə ehtiyac vardır.

Emal sənayesinin, bütövlükdə innovasiya əsaslı sənayenin inkişaf prosesini, onun səmərəliliyini, beynəlxalq standartlara cavab verən rəqabətqabiliyyətli ixracat məhsulları istehsal etmək imkanlarını qiymətləndirmək üçün keyfiyyətli və etibarlı statistik informasiya bazası formalaşdırılmalı və kompleks göstəricilər sistemindən istifadə edilməlidir. Fikrimizcə, formalaşdırılan göstəricilərin minimal dəstinin 5 bölməni əhatə etməsi məqsədəuyğundur. Bu bölmələrə sənaye istehsalının gücü (emal sənayesi məhsullarının istehsalı və ixracı qabliyyəti), sənayeləşmə səviyyəsi (texnoloji inkişaf və uyğunlaşma), sənaye məhsullarının ixracı (dünya emal sənayesi məhsulları istehsalında yeri və rolu), ixracat məhsullarının keyfiyyəti və sənayenin səmərəliliyini aid etmək olar.[10]

Ümumiyyətlə, sənayenin, xüsusilə emal sənayesinin ixracat imkanlarının artırılması istiqamətlərini 1 saylı sxemdəki kimi vermək olar.

Sənaye sektorunun təhlilinin mühüm aspektlərindən biri resursların və onun artım mənbələrinin qiymətləndirilməsidir. Bu zaman sənayenin strukturunun dəyişməsinə, istehsalın həcminin və onun ixracat imkanlarının artmasına gətirib çıxaran texnoloji innovasiya yönəldilən xərclər, əsas kapitala yönəldilən investisiyalar, əsas istehsal fondlarının dəyəri və s. kimi göstəricilərə xüsusi diqqət yetirilir.

Rəsmi statistikanın məlumatları sənayenin, o cümlədən emal sənayesinin texnoloji səviyyəsini xarakterizə edən bir sıra göstəricilərin (fond verimi, fondla təchiz edilmə, əmək məhsuldarlığı və s.) dinamikasına müsbət təsir edən əsas kapitala yönəldilən investisiyanın, əsas sənaye istehsal fondlarının, texnoloji innovasiyalara yönəldilən xərclərin həcminin müəyyən templə artdığını göstərir

---

[10] Əliyev, Ə.İ. Qlobal perspektivlər konteksində Azərbaycan sənayesinin inkişafı və onun statistik monitorinqinin bəzi məsələləri / –Bakı: "Audit" jurnalı, BBU, – №3, –2015, – səh. 3-7.




***Sxem 1. Ölkənin sənayesinin, o cümlədən  emal sənayesinin ixracat imkanlarının artırılması mexanizmi***

(cədvəl 3). 2010-cu illə müqayisədə 2021-ci ildə emal sənayesi məhsulunun həcmində 2,8 dəfə, 2020-cı illə müqayisədə isə 34,1% artım olmuşdur.

**Cədvəl 3.**

**2010-2021-ci illərdə Azərbaycanın emal sənayesini inkişafını xarakterizə edən bəzi göstəricilər**

| İllər | Emal sənayesi məhsulunun həcmi, mln. manat | Emal sənayesində əsas kapitala yönəldilmiş investisiyanın həcmi, mln. manat | Emal sənayesində məşğul olanların sayı, min nəfər | Emal sənayesində fəaliyyət növləri və tətbiqi istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat |
|---|---|---|---|---|
| 2010 | 5735,7 | 510,2 | 208,9 | 8128 |
| 2011 | 6392,4 | 847,9 | 203,7 | 29319 |
| 2012 | 7031,8 | 861,2 | 201,5 | 8083 |
| 2013 | 7243,8 | 888,.9 | 212,4 | 4066 |
| 2014 | 8071,6 | 644,6 | 217,6 | 17384 |
| 2015 | 7880,4 | 482,9 | 229,8 | 32493 |
| 2016 | 8899,4 | 424,3 | 211,6 | 27744 |
| 2017 | 9723,5 | 652,6 | 249,1 | 16104 |
| 2018 | 10465,4 | 756,8 | 254,8 | 32968 |
| 2019 | 11793,8 | 1148,0 | 262,6 | 47659 |
| 2020 | 11848,3 | 1414,2 | 258,3 | 34919 |
| 2021 | 15887,0 | 1193,7 | 269,1 | 5319 |

Bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektlərinin uğurlu fəaliyyətinin mühüm amili onun rəqabətqabiliyyətliyidir. Müəssisənin rəqabətqabiliyyətllyin yüksək səviyyəsi mənfəət əldə edilməsinin təminatıdır. Ölkənin sosial-iqtisadi inkişafının mövcud modelində rəqabətqabiliyyətliyin yüksəldilməsi əsas yerlərdən birini tutur.

Rəqabət bazarın atributudur və eyni zamanda onun mövcudluğunun və inkişafının labud şərtidir. Müəssisənin fəaliyyət göstərdiyi mal və xidmətlər bazarında rəqabətin mövcudluğu ondan müəyyən rəqabətqabiliyyətliyin təmin edilməsini tələb edir. Əks halda onun həmin bazardan sıxışdırılıb çıxarılmasına təhlükə yaranır. Başqa sözlə desək, rəqabətin xarakteri rəqabətqabiliyyətlilik dərəcəsini müəyyən edir.

Rəqabətqabiliyyətlik üç hissədən - ölkənin rəqabətqabiliyyətliyi,

sahənin yaxud regionun rəqabətqabiliyyətliyi və müəssisənin rəqabətqabiliyyətliyindən ibarət mürəkkəb sistemdir. Bütün sistemin yaxşı işləməsi üçün hər üç ünsür ahəngdar işləməlidir.

Müasir dövrdə ölkənin emal sənayesi müəssisələri bir çox hallarda çətin rəqabət şəraitindədir. Bir sıra göstəricilər üzrə müsbət nəticələrə nail olunsa da, bu sferada ciddi struktur dəyişiklikləri baş verməmişdir. İnnovasiyalı inkişaf və rəqabətqabiliyyətliyin yüksəldilməsi problemlərinin həll edilməsi baxımından emal sənayesində baş verən prosesləri izləmək lazımdır (cədvəl 4).

**Cədvəl 4.**

**2010-2021-ci illərdə Azərbaycan Respublikasında emal sənayesinin inkişafını və rəqabətqabiliyyətliyini xarakterizə edən əsas göstəricilər**

| | 2010 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| Emal sənayesinin istehsalı indeksi, əvvəlki ilə nisbətən, % | 109,4 | 98,0 | 108,0 | 111,5 | 110,6 | 119,6 |
| Emal sənayesinin sənaye istehsalının ümumi həcmində payı,% | 20,4 | 24,4 | 22,0 | 25,1 | 31,6 | 28,8 |
| Emal sənayesinin əlavə dəyərinin ümumi əlavə dəyərdə xüsusi çəkisi, % | 5,1 | 5,1 | 5,0 | 5,5 | 6,7 | 7,5 |
| Emal sənayesində məşğul olanların hər nəfərinə düşən əlavə dəyərin həcmi, min manat | 21,2 | 30,1 | 14,5 | 15,6 | 17,1 | 23,5 |
| Emal sənayesində məşğul olanların hər nəfərinə düşən əlavə dəyərin dəyişmə tempi, % | 111,1 | 101,7 | 48,2 | 107,6 | 109,6 | 137,4 |
| Emal sənayesində məşğul olanların ümumi məşğul əhalidə xüsusi çəkisi, % | 6,1 | 5,2 | 5,2 | 5,3 | 5,3 | 5,4 |
| Əsas kapitala investisiyanın dəyişmə tempi, % | 104,3 | 111,5 | 116,0 | 151,7 | 123,2 | 84,4 |
| Emal sənayesində əsas kapitala investisiyanın əsas kapitala investisiyaların ümumi həcmində payı, % | 11,9 | 6,8 | 8,9 | 12,4 | 15,6 | 14,9 |
| Emal sənayesinin aralıq istehlakının ümumi buraxılışında xüsusi çəkisi, % | 65,0 | 66,5 | 64,7 | 65,3 | 62,5 | 61,1 |
| Emal sənayesinin aralıq istehlakının hər manatına düşən əlavə dəyərinin həcmi, manat | 0,54 | 0,50 | 0,55 | 0,53 | 0,60 | 0,68 |

Cədvəlin məlumatlarından görünür ki, 2010-2021-ci illərdə emal sənayesi istehsalının həcmində və emal sənayesində məşğul olanların hər nəfərinə düşən əlavə dəyərin həcmində müəyyən dəyişikliklər müşahidə edilir. Belə ki, 2009-cu illə müqayisədə 2010-ci ildə emal sənayesi istehsalı 9,4% artmışdırsa, bu sahədə məşğul olanlara düşən əlavə dəyərin artımı 11,1% təşkil etmişdir. 2016-cı illə müqayisdə 2017-ci ildə emal sənayesi istehsalı 2% azalmış, bu sahədə məşğul olanlara düşən əlavə dəyər isə əksinə 1,7% artmışdır. 2020-ci ilə nisbətən 2021-ci ildə bu göstəricilərin artımı müvafiq olaraq 19,6% və 37,4% təşkil etmişdir.

Araşdırma göstərir ki, ölkənin emal sənayesinin rəqabətqabiliyyətliyi ilə bağlı problemlər vardır. Bu sektorun rəqabətqabiliyyətliyinin yüksəldilməsi onun özünü müəyyən edən amillərin düzgün müəyyənləşdirilnəsindən asılıdır. Qeyd etdiyimiz kimi, rəqabətqabiliyyətliyə çoxsaylı amillər təsir göstərir. Ümumiyyətlə, rəqabətqabiliyyətiliyi müəyyən edən edən amilləri sxem 2-dəki kimi vermək olar.




**Sxem 2. Rəqabətqabiliyyətliyi müəyyən edən amillər.**

Tədqiqat materiallarından çıxış edərək aşağıdakı **nəticələri, yeni elmi yanaşmaları, təklif və tövsiyələri** ümumiləşdirməyi lazım bilmişik:

Ölkənin emal sənayesinin müasir vəziyyətinin və inkişaf xüsusiyyətlərinin, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılmasında onun rolunun, həmçinin bu sektorun innovasiya və ixracat imkanlarının, rəqabətqabiliyyətliyinin yüksəldilməsi amillərinin araşdırılması nəzəri-metodoloji və praktiki əhəmiyyəti olan aşağıdakı nəticələri, təklif və tövsiyələri formalaşdırmağa imkan vermişdir:

1. Milli iqtisadiyyatın moderinləşdirilməsinin, dayanıqlı iqtisadi artımın təmin edilməsinin və dünya bazarında ölkənin rəqabətqabiliyyətliyinin artırılmasının mühüm amili innovasiya fəaliyyətninin intensivləşdirilməsidir. İstehsalın moderinləşdirilməsinin əsas keyfiyyət amili innovasiya prosesidir. Ölkədə milli innovasiya sisteminin formalaşdırılması, onun fəaliyyət dairəsinin genişləndirilməsi və səmərəliliyinin yüksəldilməsinə yönəldilən coxsaylı və müxtəlif vasitələrin və tədbirlərin tətbiqinə baxmayaraq əldə edilən səmərə hələlik əhəmiyyətli və ürəkaçan deyildir. Odur ki, bütövlükdə milli iqtisadiyyat baxımından yüksək səmərəyə nail olmaq məqsədilə dövlət və emal müəssisələri tərəfindən innovasiya fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi vacibdir.

2. Tədqiqatlarımızdan aydın olur ki, sənaye sektoru hər bir ölkənin ictimai inkişafının bütün tərəflərinə və bütövlükdə dünya təsərrüfatına olduqca əhəmiyyətli təsir göstərir. Müasir dövrdə iqtisadiyyatın üçüncü sektorunun sürətlə inkişaf etdiyinə baxmayaraq dünyanın ÜDM-nun təxminən 1/3, iqtisadi fəal əhalinin 1/5 sənayenin payına düşür. Emal sənayesi tədqiqat və işləmələrin güclü hərəkətvericisi kimi çıxış edir. Emal sənayesi iqtisadiyyatda məhsuldarlığın, rəqabətqabiliyyətliyin və innovasiya fəallığının, həmçinin əhalinin rifah səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Emal sahələrinin səmərəli strukturu dövlətin fəal sənaye siyasətinin daimi obyekti və qlobal bazarda beynəlxalq rəqabətqabiliyyətlik amili kimi çıxış edir.

3. Qlobal çağırışlar və dünya bazarının inkişafı şəraitində ölkə

iqtisadiyyatının rəqabətqabiliyyətliyinin yüksəldilmsinin əsas vəzifələrindən biri idxalı əvəzedən və ixrac yönümlü yüksək texnoloji sənayeninin inkişafıdır. Bunda elmi potensialın, istehsalın və biznesin inteqrasiyası əhəmiyyətli rol oynayır. Elmi strukturların elmi, texnoloji və təhsilin inkişafının prioritet istiqamətlərində tədqiqatların həyata keçirməsi, həmçinin sənaye üçün yüksək ixtisaslı mütəxəsislərin hazırlanması innovasiyalı iqtisadiyyatın formalaşdırılmasının mühüm istiqamətlərindəndir.

4. Araşdırmalarımız göstərir ki, infrastruktur, investisiya və innovasiya xarakterli mühüm vəzifələrin həll edilməsində dövlətin iştirakı olmadan sənaye sektoru rəqabətqabiliyyətliyin zəruri səviyyəsinə nail ola bilməz, daxili və xarici bazarda rəqabət üstünlüyünü təmin edə bilməz. İqtisadiyyatın bu mühüm sektorunun inkişafı, onun müasir texnoloji, innovasiya və idarəetmə səviyyəsinin qaldırılmasını təmin edən, sənaye sferasında strateji məqsədləri və prioritetləri müəyyən edən, sənaye sahələrinin inkişaf strategiyaları və onların həyata keçirilməsi vasitələrini formalaşdıran səmərəli sənaye siyasətinin işlənib hazırlanmasını və həyata keçirilməsini zəruri edir.

İnnovasiyalı iqtisadiyyatın səmərəli formalaşdırılması yalnız dövlət, elm və biznesin tam koordinasiyası halında mümkündür. Məhz buna görə də inkişaf etmiş ölkələrdə elm və istehsal sferaları arasında əlaqələndirici həlqə kimi çıxış edir. Dünya təcrübəsi göstərir ki, sənaye siyasətinin (xüsusi ilə də emal sənayesi siyasətinin) tələbləri və onun imkanları zaman-zaman dəyişir. Dəyişən şəraitə uyğunlaşma sənaye siyasətinə yeni ideyaların və qərarların əlavə edilməsini zəruri edir. Bu məsələlərin həllində innovativ dövlət menecmentinin və siyasətinin formalaşdırılması və tətbiqi mühüm rol oynayır.

5. Hesab edirik ki, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılmasında emal sənayesinin rolunun artırılmasına gətirib çıxaran siyasətin əsas vəzifələrinə aid etmək olar:

- yeni innovasiya məhsulları bazarını formalaşdıran qabaqcıl sənaye texnologiyaları və innovasiya potensialından fəal istifadə əsasında emal sənayesinin müasir texnoloji strukturunu formalaşdırmaq;

- milli emal sənaye kapitalının bazarın yüksəktexnoloji və rəqabətqabiliyyətli seqmentlərində yerləşdirilməsinə, onların səmərəliliyinin yüksəldilməsinə kömək göstərmək;

- investisiya fəaliyyətinin innovasiya istiqamətliliyini gücləndirmək;

- emal sənayesinin aparıcı sahələrində yüksək əlavə dəyərli məhsulların istehsalını və ixracını stimullaşdırmaq;

- emal sənayesinin sahəvi və institusional strukturunun optimal inkişafını təmin etmək;

- kiçik, orta və iri biznesin əməkdaşlığını təmin etmək və məhsuldarlığının yüksəldilməsi təşəbbüsündə olan yüksək texnoloji sahələri dəstəkləmək və s.

6. Qlobal proseslər fonunda ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyini yüksəltmək və idxaldan asılılığını azaltmaq, ixracyönümlü qeyri-neft iqtisadiyyatının əsaslı inkişafını təmin etmək üçün davamlı olaraq islahatların həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir və bu məqsədlə Azərbaycanda müstəqillik illərində çoxsaylı sosial-iqtisadi qərarlar qəbul edilmiş, qanunlar, konsepsiyalar, strategiyalar, Dövlət Proqramları hazırlanmış, onların uğurla icrasına nail olunmuşdur. Makroiqtisadi sabitliyə nail olunmuş, qeyri-neft sahələrinin inkişafına, xüsusilə sahibkarlığın inkişafına dövlət dəstəyi gücləndirilmiş, əlverişli biznes və investisiya mühiti formalaşmış, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır. Ona görə də müəyyənləşdirilmiş strateji hədəflərə uyğun olaraq iqtisadiyyatın bütün sahələrinin, xüsusilə sənayenin və onun innovasiya yaradıcı sahəsi olan, ölkənin ixracat parametirlərinə müsbət təsir göstərə bilən emal sənayesinin moderinləşdirməsi, diversifikasiyası, istehsalın texniki və texnoloji səviyyəsinin yeniləşdirilməsi istiqamətində inkişaf etdirilməsi olduqca zəruridir.

7. Qənaətimizə görə, ölkədə təsərrüfat subyektlərinin sosial-iqtisadi vəziyyətinin müxtəlifliyi onların innovasiyalı inkişafında əhəmiyyətli fərqliliyə gətirib çıxarır ki, bunun da innovasiyanın təkmilləşdirilməsinə istiqamətləndirilən tədbirlərin, sənaye siyasətinin işlənib hazırlanması və həyata keçirilməsində nəzərə alınmasını zəruri edir. Bütün bunlar ölkə və təsərrüfat subyektləri səviyyəsində innovasiyalı inkişafın təhlinin və onun nəticələrinin monitorinqinin metodologiyasının təkmilləşdirilməsini zəruri edir. Bu problemlərin həlli innovasiyalı inkişafın prioritetlərini və onun həyata keçirilməsi mexanizmlərini seçməyə imkan verməklə, müxtəlif səviyyələrdə

mükəmməl və iqtisadi baxımdan əsaslandırılmış innovasiya siyasətini formalaşdırmağa şərait yaradır.

8. İnnovasiya potensialına təsir edən amilləri müxtəlif əlamətlər, xüsusilə yaranma mənbələrinə, tərkibinə, yayaılma dərəcəsinə, nəticəyə təsir etmə dərəcəsinə, istehsal sisteminə münasibətə, formalaşma imkanlarına, təsir müddətinə, innovasiya potensialına təsir xarakterinə, idarə oluna bilmə dərəcəsinə və s. görə təsnifatlaşdırılması vacibdir. Müəssisənin innovasiya potensialına təsir edən amillərin bu cür təsnifatı onun səviyyəsinin müəyyən edilməsi və tənzimlənməsinə imkan verən kompleks göstəricilər sisteminin işlənib hazırlanmasına və eyni zamanda sənaye müəssisələrinin, bütövlükdə emal sənayesinin innovasiya potensialının qiymətləndirlməsi metodlarının təkmilləşdirilməsinə imkan verir.

9. Müasir şəraitdə ölkə sənayesinin, o cümlədən emal sənayesinin mövcud ixracat imkanlarından səmərəli istifadə edilməsinə və səmərəli inkişafına mane olan bir sıra problemlər mövcuddur. Onlara emal sənaye müəssisələrinin əsas fondlarına köhnəlmənin yüksək səviyyəsinin xas olmasını, bir çox yerli sənaye məhsullarının aşağı rəqabətqabiliyyətliyini, əksər müəssisələrin maliyyə vəziyyətinin və innovasiya fəallığının ürəkaçan olmamasını və s. aid etmək olar.

10. Fikrimizcə, sənayedə struktur dəyişikliyinə nail olmaq, emal sənayesinin texnoloji səviyyəsinin və ixracat imkanlarının artırılması məqsədəilə emal sənayesi müəssisələrinin vergi yükünün azaldılmasına imkan verən vergi qanunvericiliyinin təkmilləşdirilməsi, kapitalın sənaye sektorları arasında hərəkət istiqamətinin dəyişdirilməsi, həm yerli, həm də xarici investorlar üçün emal sənayesinin cəlbediciliyinin artırılmasına istiqamətlənən davamlı tədbirlərin reallaşdırılması, emal sənayesinin texnoloji bazasının idxal edilən maşın və avadanlıqlardan, nəqliyyat vasitələrindən asılılığının aradan qaldırılmasına imkan verən sənaye siyasətinin həyata keçirilməsi, kooperasiya əlaqələrinin genişləndirilməsi, emal sənayesinn innovasiyalı inkişafının stimullaşdırılması və s. məqsəduyğundur.

11. Bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektlərinin uğurlu faəliyyətinin mühüm amili onun rəqabətqabiliyyətliyidir. Müəssisənin rəqabətqabiliyyətllyinin yüksək səviyyəsi mənfəət əldə edilməsinin

təminatıdır. Fikrimizcə, ölkənin emal sənayesinin və yerli istehsalçılarının fəaliyyət səmərəliliyinin və rəqabətqabiliyyətliyinin yüksəldilməsi üçün aşağıdakı sistemli tədbirlərin həyata keçirilməsi zəruridir:

- ölkənin institusional mühitinin makroiqtisadi, hüquqi və sosial komponentlərini möhkəmləndirmək, biznes mühitini yaxşılaşdırmaq, inkişafın klasterli tipinə keçmək və regionlarda iqtisadi inkişafı intensivləşdirmək;
- emal sənayesi müəssisəələrinin maliyyə sabitliyini təmin etmək, səmərəliliyin yüksəldilməsinin daxili ehtiyatlarını fəallaşdırmaq və istehsal edilmiş məhsulun maya dəyərini aşağı salmaq;
- idarəetmənin səmərəliliyini yüksəltmək və məhsuldarlığın artırılması üçün motivasiya mexanizmlərini inkişaf etdirmək;
- sənayenin strukturunu dəyişmək və moderinləşdirilmək, dövlət əmlakının idarəetmə sistemini təkmilləşdirmək, emal sənayesinin istehsal, innovasiya və ixracat imkanlarının artırılmasına və rəqabətqabiliyyətliyinin yüksəldilməsinə istiqamətlənən kompleks investisiya proqramını həyata keçirimək.

12. Qənaətimizə görə, tədqiqat əsərində irəli sürülmüş təklif və tövsiyələr Böyük Qayıdış üzrə 1-ci Dövlət Proqramının hədəflərinə uyğun işğaldan azad olunmuş ərazilərin reinteqrasiyası, o cümlədən emal sənayesinin formalaşması və inkişafı zamanı da faydalı ola bilər.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər müəllifin həmmüəllifsiz dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Dayanıqlı iqtisadi artım və innovasiya. Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Xəbərləri. İqtisadiyyat elmlər seriyası. Bakı, 2017. № 2, s. 45-51.

2. Azərbaycan Respublikası sənayesinin müasir vəziyyətinin təhlili. Əmək və Sosial Problemlər, Elmi əsərlər toplusu. Bakı, 2017. № 2 (20), s. 123-131.

3. Sənaye müəssisələrinin innovasiya potensialının qiymətləndirilməsi. Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Xəbərləri. İqtisadiyyat elmlər seriyası. Bakı, 2017, № 3, s. 87-93.

4. Qlobal rəqabət şəraitində innovasiyalı iqtisadiyyatın inkişafının bəzi məsələləri. “Kooperasiya” elmi-praktik jurnal, Bakı, 2017. № 3 (46), s. 25-30.

5. Структура мировой промышленности: тенденция и стратегия развития. Экономика и предпринимательство. Москва, 2017. № 7 (84), s. 184-187.

6. İnnovasiya fəaliyyətinin statistik qiymətləndirilməsinin bəzi məsələləri. “Azərbaycan iqtisadiyyatının Strateji Yol Xəritəsi: hesabatlıq və şəffaflıq problemləri” mövzusunda beynəlxaq elmi-praktiki konfrans. Bakı, 21 sentyabr 2017, s. 225-227.

7. Azərbaycanın emal sənayesinin rəqabətqabiliyyətliyinin yüksəldilməsi istiqamətləri. “Strateji iqtisadi islahatlar: Qabaqlayıcı vergi siyasəti” mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 12 oktyabr 2017, s. 271-272.

8. Azərbaycanda emal sənayesinin ixracat imkanlarının artırılması istiqamətləri. “Kooperasiya” elmi-praktik jurnal, Bakı, 2018, № 1 (48), s. 58-64.

9. Инновационный потенциал обрабатывающей промышленности и факторы его развития. LXIV Международной научно-практической конференции “Инновационные подходы в современной науке”. Москва, 2020, № 4 (64), s. 49-54.

10. Emal sənayesinin inkişafı şəraitində innovasiya klasterlərinin yaradılması. “Kooperasiya” elmi-praktik jurnal. Bakı, 2023, № 2 (69), s. 47-53.

11. Azərbaycanda emal sənayesinin inkişafında Heydər Əliyevin rolu. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Heydər Əliyev və müasir türk dünyası” mövzusunda beynəlxalq elmi-praktiki konfrans. Bakı, 2023, s. 479-483.



Dissertasiyanın müdafiəsi 20 dekabr 2023-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 20 noyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.11.2023

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 46058 işarə

Tiraj: 100